# Bəyanır, təqdir edir, alqışlayırıq...

***Hər bir tədbirin möhtəşəmliyi qarşıya qoyulan məqsədin əhəmiyyəti, onun cəmiyyət tərəfindən maraqla qarşılanması ilə ölçülür. Bu mənada, Mədəniyyət və Turizm Nazirliyi və respublikada fəaliyyət göstərən teleradio şirkətlərinin birgə əməkdaşlığa dair imzaladıqları bəyanatın ölkədə böyük əks-səda doğurmasında qəribə heç nə yoxdur. Sənət adamlarının, elm, mədəniyyət və incəsənət xadimlərinin ürəyindən xəbər verən bu aksiya mənəviyyatımızın saflığı uğrunda bütün qüvvələrin birləşdirilməsini nəzərdə tutur.***

Əməkdaşlarımız ictimaiyyətin müxtəlif nümayəndələri ilə görüşmüş, bu barədə onların fikirləri ilə maraqlanmışlar.

***Fəttah Heydərov,***
***Milli Məclisin deputatı:***

- Həyat və fəaliyyətimin böyük bir hissəsi mədəniyyətimizlə bağlıdır. Uzun illər Naxçıvan MR Mədəniyyət naziri vəzifəsində çalışmışam. Odur ki, mədəniyyətimizin uğur və çatışmazlıqları mənə yaxşı məlumdur. Son zamanlar bu istiqamətdə aparılan islahatlar məni bir ziyalı, mədəniyyət xadimi kimi çox fərəhləndirir. Haqqında söhbət açdığımız bəyanat da möhtərəm nazirimiz Əbülfəs Qarayevin növbəti uğurlu təşəbbüslərindəndir. Əbülfəs müəllimin təşkilatçılıq bacarığına yaxından bələd olduğum üçün onun mədəniyyətimizin tərəqqisi və təbliği, mənəviyyatımızın saflığı istiqamətində möhtəşəm addımlar atacağına və bu gərəkli işdə müvəffəqiyyət qazanacağına çox inanıram.

Nə danmalı, telekanallardakı aparıcıların Azərbaycan dilinin ahəng qanununa uyğun olmayan danışıq tonu, səviyyəsiz monoloqları, mənasız sualları, şit hərəkətləri tamaşaçılara nəinki xoş gəlmir, hətta hər birimizin əsəbinə səbəb olur.

Odur ki, bu bəyanatı mən çox yüksək qiymətləndirirəm. Düşünürəm ki, bu əməkdaşlıq sayəsində televiziyalarımız bəsit, zəif verilişlərdən, milli dəyərlərimizə xələl gətirəcək süjetlərdən qurtaracaq, maraqlı layihələri ilə diqqət çəkəcəklər...

***Soltan Həsənov,***
***Bərdə Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri:***

- Televiziyanı haqlı olaraq "həyatımızın güzgüsü" adlandırırıq. İndi bu "güzgünü" bütün dünya izləyir. Bunu nəzərə alaraq orada çalışan insanlar öz üzərilərində böyük məsuliyyət hiss etməli, davranış və söhbətlərində son dərəcə diqqətli olmalı, götür-qoy etməli, dərindən düşünməli, tamaşaçılara nə demək istədiklərini yaxşı bilməli, mentalitetimizə, adət-ənənəmizə, tariximizə, əxlaqi qanunlarımıza biganə yanaşmamalıdırlar...

***Canəli Əkbərov,***
***xalq artisti:***

- Efiri, ekranı, konsert salonlarını bürümüş gurultudan, səs-küydən, şit, duzsuz proqramlardan, bayağı verilişlərdən xilasın, mənim fikrimcə, bir yolu var. O da bədii şuraların yaradılması və bu sahəyə diqqətin, nəzarətin artırılması ilə bağlıdır. Hər şey öz məcrasında getməlidir, həddən çıxan nə varsa eybəcərlikdir, fəlakətdir.

Xoşbəxtlikdən bəyanatda bədii şuraların yaradılmasına xüsusi yer ayrılmışdar. Ancaq gərək bu qurum obyektiv fəaliyyət göstərsin, yaxşını pisdən fərqləndirsin, səviyyəsizləri efir və ekrana buraxmasın...

***Nəriman Həsənzadə,***
***xalq şairi, Milli Aviasiya Akademiyasının kafedri müdiri:***

-Harada çalışmağımızdan, hansı vəzifəni tutmağımızdan asılı olmayaraq ictimai-siyasi və mədəni həyatımızda baş verən hadisələrə ilk növbədə bir valideyn kimi həssaslıq göstərir, qiymət verir, qayğılanırıq.

Mənəviyyatımızla bağlı məsələlər isə bizi daha sox düşündürür. Çünki bütün sahələrdə buraxılmış səhvləri düzəltmək mümkün olduğu halda, təlim-tərbiyədə, mədəniyyətdə yaranmış problemləri aradan qaldırmaq olmur. Bu, böyüməkdə olan nəslin zövqünü, dünyagörüşünü, mənəviyyatını korlayandan sonra xüsusilə ağır, sağalmaz olur. Bütün bunlara istinadən söyləyə bilərəm ki, Mədəniyyət və Turizm Nazirliyinin haqqında söhbət gedən təşəbbüsü alqışlanmalı, yüksək dəyərləndirilməlidir...

***Arif Babayev,***
***xalq artisti:***

-Son vaxtlar telekanallarda təəssüfdoğuran, ürəkağrıdan çox hallara təsadüf edirik. Bəzən verilişlərə elə adamı dəvət edirlər ki, qətiyyən musiqidən xəbəri olmur. Di gəl ki, utanmaz-utanmaz efir vasitəsilə hamıya musiqidən öyüd-nəsihət verir. Yarıçılpaq halında ekrana buraxılanlar haqqında ikrahla danışmaqdan başqa yolun qalmır.

İnanıram ki, bədii şura bunların hamısının qarşısını alacaq, hər şeyi Azərbaycanın milli musiqisi əsasında quracaq. Nəticədə mədəniyyətimiz daha da inkişaf edəcəkdir..

***Zülfüqar Rzayev,***
***Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun ortoped-travmatoloqu:***

-Bəyanat çox vaxtında imzalanmışdır. Nə danmalı, teleradio şirkətlərimiz mədəniyyət, ədəbiyyat və incəsənət məsələlərini işıqlandırarkən mövcud ənənələri lazımınca qorumur, onlarda dəqiqlik və operativlik çatışmır. Efirdə göstərilən və səsləndirilən materiallarda Azərbaycan ədəbi dilinin təmizliyinə riayət olunmur, dəqiq faktlara istinad edilmir. Bu qədər mədəniyyət korifeylərimiz ola-ola efir-ekran təsadüfi adamlara verilir. Səsi, istedadı ilə diqqət çəkmədiyi az imiş kimi belələri mentalitetimizə zidd olaraq ekrana çılpaqlanmış halda çıxırlar. Bu "nadir tapıntılar"ın çıxardıqları bu oyuna görəsən onların ailəsi, ata və qardaşları necə baxır?!

Onları efir və ekrana çıxaranların, məncə, günahı daha bağışlanılmazdır. Düşünürəm ki, imzalanan bəyanat bu sahədəki boşluqların doldurulmasında, qayda-qanunların qorunmasında əhəmiyyətli rol oynayacaqdır...

**Səbinə,**
**Tural**